**XX əsrin sonlarından başlayaraq Azərbaycanda, postsovet məkanında, eləcə də beynəlxalq aləmdə cərəyan edən proseslər belə bir həqiqəti ortaya qoydu ki, ölkəmizin yenicə qazanılmış dövlət müstəqilliyinin qorunması, onun dünya birliyində layiqli yer tutması aparılan məqsədyönlü mübarizə – siyasi sabitliyin, iqtisadi yüksəlişin, sosial məmnunluğun təmin edilməsi və müdafiə qabiliyyətinin möhkəmləndirilməsi ilə mümkün ola bilər. Doğrudan da, ölkənin müstəqilliyinin, azadlığının qorunması üçün düzgün siyasi strategiyanın həyata keçirilməsi, iqtisadi inkişafa nail olunması, ümummilli faciələrin sarsıtdığı xalqda özünə inam yaradılması, əsaslandırılmış xarici siyasət yeridilməsi kimi milli maraqlara xidmət edən kompleks tədbirlər zəruri idi. Bu ümummilli vəzifələrin gerçəkləşdirilməsi isə tarixi şəraitdən, mühitdən, müxtəlif təsirlərdən, obyektiv və subyektiv səbəblərdən asılı olaraq böyük məsuliyyət və həssaslıq tələb edirdi. Qarşıda duran bu çətin və mürəkkəb hədəflərə çatmaq üçün ölkə rəhbərliyinin üzərinə böyük məsuliyyət düşürdü.**



# Heydər ƏLİYEV:

# Ordu ölkəmizin, millətimizin, dövlətimizin müstəqilliyinin dayağıdır





Tarix də sübut edir ki, böyük dövlət xadimləri, istedadlı siyasi rəhbərlər öz ölkələrinin sınaq dövrlərində böhrandan çıxıb inkişafa üz tutulmasında çox önəmli rol oynamışlar. Bu baxımdan Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev də yaxın tarixdə öz ölkəsinin taleyində müstəsna rol oynamış və ən mürəkkəb şəraitdə xilaskarlıq missiyasını üzərinə götürmüşdür. Onun istər sovet dövründə respublikaya mükəmməl rəhbərliyi, istər torpaqlarımızın bütövlüyünün qorunması və suverenliyin bərpası uğrunda ümumxalq mübarizəsinə düzgün yön verməsi, istərsə də müstəqillik illərində Azərbaycanın həqiqi lideri olması bu qənaəti qəti olaraq təsdiqləmişdir.

Ulu öndər Azərbaycana hər iki rəhbərliyi dövründə ölkəsinin hərtərəfli inkişafını yüksək səviyyəyə qaldırmışdır. Sovet dövründən fərqli olaraq, XX əsrin sonlarında Heydər Əliyev dağılıb bərbad vəziyyətə düşmüş bir dövləti yenidən qurub inkişafının yüksək mərhələsinə çıxartmışdır.

Ümummilli liderin Azərbaycanda hakimiyyətə qayıdışından sonra onun rəhbərliyi ilə ölkədə əldə edilmiş tarixi uğurları sistemləşdirən araşdırmaçılar belə bir sualı da cavablandırmağa çalışırlar: Heydər Əliyevin bu möhtəşəm uğurları nədən qaynaqlanırdı?

Əvvəla, Heydər Əliyevi başqa siyasətçilərdən fərqləndirən başlıca xüsusiyyəti onun ən mürəkkəb vəziyyətdə belə çoxlarının görə bilmədiyi ən doğru, təsirli üsul və vasitələri tapıb sürətlə dayanan vəzifələrin icrasına yüksək səviyyədə nail ola bilməsi idi. Belə bir keyfiyyət, sözsüz ki, həm nəzəri biliklərin, həm də zəngin siyasi təcrübənin zəruri nəticəsi idi. İkincisi, dünya səviyyəli siyasət və dövlət xadimi Heydər Əliyev bunlardan başqa, həm də güclü iradəyə, incə duyuma malik şəxsiyyət idi.

Bütün bunlar ulu öndərin dərin zəkasında və tükənməz enerjisində təzahür edərək onun çağdaş dünyada nadir dövlət xadimi kimi tanınmasını şərtləndirirdi. Heydər Əliyev siyasəti beynəlxalq miqyasda məharət səviyyəsinə qaldıran dahi şəxsiyyətlərdən idi və onun bu istedadını dünyanın tanınmış siyasətçiləri yüksək dəyərləndirirdilər.

1993-cü il oktyabrın 3-də xalqın böyük əksəriyyətinin sevgi, etimad və dəstəyi ilə müstəqil Azərbaycanın ilk həqiqi Prezidenti seçilmiş Heydər Əliyevin yeni şəraitdə dövlət quruculuğunun bütün sahələrində, o cümlədən ölkənin hərbi təhlükəsizliyinin təmin edilməsi sahəsində gördüyü əzəmətli işlər onun mahir siyasətçi, böyük təşkilatçı olduğunu bir daha sübut etdi. Ulu öndərin müstəqil Azərbaycanın ali rəhbəri kimi fəaliyyəti elə ilk günlərdən göstərdi ki, ölkənin dövlət müstəqilliyini, ərazi bütövlüyünü etibarlı şəkildə qorumaq, bütün potensialını məqsədyönlü şəkildə bu istiqamətə yönəltmək, hərbi təhlükəsizliyi təmin etmək üçün daxili ictimai-siyasi sabitlik yaradılmalı, xalqın bütün təbəqələri ümummilli məqsədlər ətrafında birləşməlidir.

26 il əvvəlki böhranlı tarixə nəzər salınması göstərir ki, Heydər Əliyevin Azərbaycanın dövlət rəhbəri kimi daxili hərbi-siyasi sabitliyin, vətəndaş həmrəyliyinin, xalqın birliyinin təmin edilməsinin əhəmiyyətini o zaman müstəsna bir zəka ilə düzgün qiymətləndirdi və tezliklə bu yöndə məqsədinə uğurla nail oldu. Ulu öndər yaxşı bilirdi ki, ölkə daxilində bu sabitliyin təmin edilməsi, bununla da quruculuq işlərinin, o cümlədən ordu quruculuğunun həyata keçirilməsinə zəruri şərait yaradılması üçün əsaslandırılmış dövlət siyasəti lazımdır.

Prezident Heydər Əliyevin respublikada daxili hərbi-siyasi sabitliyin təmin edilməsi sahəsindəki fəaliyyəti bu zərurətin əyani təzahürü idi. Bu fəaliyyət göstərdi ki, ölkədə daxili hərbi-siyasi sabitliyin təmin edilməsi dövlət rəhbərliyindən çox böyük əzmkarlıq, ardıcıllıq və təcrübə tələb edir. Zaman da sübut etdi ki, kifayət qədər mürəkkəb tarixi şəraitdə belə vəzifələrin uğurlu həllinə Heydər Əliyev kimi böyük dövlət xadimləri nail ola bilərlər.

Müstəqil dövlətin başçısı kimi Heydər Əliyev cəmiyyətin ictimai-siyasi sabitliyinin və yekdilliyinin təmin olunmasına xüsusi əhəmiyyət verirdi. O, respublikanın ali rəhbəri kimi əsas fəaliyyətini məhz bu sahədən başladı. Xalqın siyasi qütblərə parçalanmasını, vətəndaşların bir-birinə qarşı əks cəbhələrdə dayanmasını Heydər Əliyev erməni təcavüzünə qarşı mübarizədə ciddi maneə kimi qəbul edirdi. Böyük rəhbər son həddə çatmış bu parçalanmanı, müxalifətçiliyi dayandırıb aradan qaldırmayınca, güclü ordu yaratmağın və ölkənin etibarlı müdafiəsinin mümkünlüyünü də istisna edirdi.

1993-cü ilin yayında Gəncə və Lənkəranda baş vermiş hadisələrin, 1994-1995-ci illərdə dövlət çevrilişinə göstərilən cəhdlərin qarşısının alınması Heydər Əliyevin böyük siyasi xadim olduğunu göstərməklə bərabər, respublikada ictimai-siyasi sabitliyin bərqərar olmasına, cəmiyyətin vahid məqsəd ətrafında daha çox səfərbər edilməsinə, ölkənin müdafiə qüdrətinin möhkəmlənməsinə şərait yaratdı. Ulu öndər bu yöndə müstəsna fəaliyyəti ilə bir daha sübut etdi ki, hərbi quruculuq kimi ümummilli əhəmiyyətli bir məsələnin həlli, ilk növbədə, ümumxalq yekdilliyindən və milli həmrəylikdən asılıdır.

Dövlət quruculuğunun bütün sahələrində olduğu kimi, ordu quruculuğu sahəsində də incə və əsaslı siyasət yeridilməsində Heydər Əliyevin ali keyfiyyətləri o çətin günlərdə bir daha xalqına təmənnasız xidmətə səfərbər edildi. Heydər Əliyev Bakıya dəvət olunanda Azərbaycan Ordusu ağır böhran, parçalanma və darmadağın həddində idi. Bu böhranın xarakterik tərəfləri aşağıdakılardan ibarət idi:

*– orduya dövlət rəhbərliyi təmin edilməmişdi;*

*– hərbi quruculuq ilə bağlı dövlətin aydın proqramı yox idi;*

*– dövlət və ordu bir–birindən ayrı düşmüşdü;*

*– ordu siyasi proseslərə cəlb edilmişdi;*

*– silahlı qüvvələr daxilində siyasi mənsubiyyətə və məqsədlərə görə parçalanma yaranmışdı;*

*– orduda xaos, özbaşınalıq, qanunsuzluqlar baş alıb gedirdi;*

*– sovet ordusundan miras qalmış hərbi əmlakın böyük bir hissəsi məhv edilmişdi;*

*– çağırış işi özbaşına buraxılmışdı;*

*– döyüş qabiliyyəti zəruri tələblərə cavab vermirdi;*

*– vahid komandanlıq təmin edilməmişdi.*

Başlıcası isə hərbi quruculuqla bağlı cəmiyyətdə daxilində son dərəcə bədbin əhval-ruhiyyə var idi və bu da öz növbəsində ordunun varlığına inamsızlıq yaradırdı. Ölkə daxilində güclənməkdə olan qeyri-sabitlik isə bu sahədə ümidverici bir addımın atıla biləcəyini şübhə altına qoyurdu.

Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev məhz belə bir şəraitdə xilaskarlıq missiyasını öz üzərinə götürdü və respublikanı mərhələ-mərhələ bu dərin böhrandan çıxarmağa başladı.

Ulu öndər tarix üçün kifayət qədər qısa bir zamanda Azərbaycanın hərbi təhlükəsizliyinin təmin edilməsi üçün real qüvvələri formalaşdıra bildi.

Onun səmərəli fəaliyyəti bir daha göstərdi ki, təşəbbüskarlıq, ardıcıllıq, qətiyyət, yorulmazlıq, prinsipiallıq ordu quruculuğuna rəhbərlik edən dövlət rəhbəri üçün necə önəmli keyfiyyətlərdir. Bu keyfiyyətlərin səmərəli uzlaşdırılması sahəsində Heydər Əliyevin fəaliyyəti fenomenal bir hadisə idi.

Azərbaycan Ordusunun formalaşdırılması sahəsində Heydər Əliyevin tarixi fəaliyyətinin ilk addımları Naxçıvanda atılmışdı. Böyük dövlət xadiminin muxtar respublikadakı qısa fəaliyyəti bir daha göstərdi ki, məqsədyönlü, milli maraqları qoruyan siyasət yeridilməsi, xalqın milli maraqlar ətrafında birləşdirilməsi ən mürəkkəb vəzifələri belə həyata keçirməyə imkan verir. Heydər Əliyev parlaq zəkası və bənzərsiz təşkilatçılıq qabiliyyəti ilə həm Naxçıvanın erməni təcavüzündən müdafiəsini, həm də burada milli hərbi hissənin sağlam əsaslar üzərində formalaşmasını təmin etdi.

Ordu quruculuğunun səmərəliliyinə nail olunmasının başlıca şərtlərindən birini Heydər Əliyev xalqın qüvvəsinə arxalanmaqda, onunla vəhdətdə görürdü. O, xalqın gücü qarşısında hər cür qüvvənin sönük olduğunu təsdiq edir və öz fəaliyyətinə də ən böyük dəstəyi xalqın etibarında və etimadında görürdü. Ölkə həyatının ən böyük problemlərinin həllində də o, məhz xalqın gücünə arxalanırdı və mürəkkəb anlarda da xalqı ayağa qaldırmağı və milli mənafelər ətrafında onu səfərbər etməyi bacarırdı.

Azərbaycanda hərbi quruculuğun yeni əsaslar üzərində qurulmasının və qısa müddət ərzində yeni ordunun formalaşdırılmasının başlıca şərtlərindən biri də məhz Heydər Əliyevin bütün xalqı bu prosesə cəlb etməsi idi. Onun müstəsna fəaliyyəti ilə respublikanın siyasi böhran və fəlakət girdabından çıxarılması, yeni güclü ordunun yaradılması əsl möcüzə idi. Bu sahədə mövcud olan problemlər son dərəcə çoxşaxəli olsa da, tədricən uğurla həll edildi. Heydər Əliyev Azərbaycanın özü kimi, onun müstəqilliyinin dayağı olan ordusunu da məhv olmaqdan, dağılmaqdan xilas etdi.

Ali Baş Komandan kimi Heydər Əliyev qısa müddət ərzində güclü və təşkilatlanmış bir ordu yaratdı. O, ordu quruculuğuna münasibətdə yeni bir baxış formalaşdırdı və Azərbaycan Ordusunu dövlət müstəqilliyinin dəyərli reallıqlarından birinə çevirdi. Nəticədə, xalqın mübarizlik, dönməzlik əzmi orduya da sirayət etdi, şəxsi heyətin mənəvi əhval-ruhiyyəsi kifayət qədər sağlamlaşdırıldı. Yeni-yeni ehtiyat hissələr təşkil edilərək cəbhəyə göndərildi. Döyüşçülərin və onların ailələrinin sosial qayğı ilə əhatə edilməsində canlanma yarandı.

Bütünlükdə, Heydər Əliyev hərbi quruculuğa münasibətdə cəmiyyətdə yeni bir təfəkkür formalaşdırdı, insanlarda orduda xidmətə yeni bir münasibət yarandı. Əvvəlki dövrlərdə orduya olan etimadsızlıq, ordunun ayrı-ayrı qrupların fəaliyyətindən doğan nigarançılıq aradan qaldırıldı. Ordunun xalqın bir parçası olmasının real anlamı cəmiyyətdə bərqərar olundu. Heydər Əliyevin bu sahədəki misilsiz fəaliyyəti xalqda orduya inamı geri qaytardı, xalq da ordunu özünün bir parçası kimi qəbul etdi. Orduya qayğı ümummilli dəyər aldı, silahlı qüvvələr vahid rəhbərlik altında birləşərək xalqın iradəsini əks etdirdi və erməni təcavüzünə qarşı mübarizəyə səfərbər olundu.



Ordu quruculuğunda yeni bir mərhələnin başlanğıcını isə Heydər Əliyevin radio və televiziya ilə xalqa 2 noyabr 1993-cü il müraciəti qoydu. Azərbaycan Respublikasının Prezidenti seçilməsindən cəmi bir ay sonra edilmiş bu müraciət sağlam ordu quruculuğunun əsaslarını və bu istiqamətdə xalqın və dövlətin qarşısında dayanan mühüm vəzifələri müəyyənləşdirən konseptual bir sənəd idi. Bu çağırış xalqın bütün təbəqələri tərəfindən qəbul edildi və xalqın bütün potensialı ordu quruculuğuna istiqamətləndirildi. Bununla Heydər Əliyev böyük dövlətçilik təfəkkürü ilə xalqın potensialını ordu quruculuğu kimi mühüm bir sahəyə səfərbər edə bildi.



Heydər Əliyev respublika ağsaqqallarına, ziyalılarına, mədəniyyət və incəsənət xadimlərinə, dindarlara, iş adamlarına müraciət edib onları orduya daha yaxından kömək etməyə, əsgər və zabitlərin mübariz döyüş ruhunda tərbiyə olunmasına yardım etməyə, orduda baş verən qanunsuzluqların, başlıcası isə fərariliyin qarşısının alınmasında qətiyyətli mövqe tutmağa çağırdı. Ali Baş Komandan bu müraciətində hərbi strukturlara yol tapmış yaramazlıqlara qarşı mübarizənin gücləndirilməsinin zəruriliyini də vurğuladı. Bu baxımdan ümummilli lider orduya çağırış-səfərbərlik işinin düzgün təşkil edilməsinə böyük əhəmiyyət verir, bu məsələni yalnız hərbi komissarlıqların və hərbi strukturların deyil, eyni zamanda, dövlət və hakimiyyət orqanlarının qarşısında dayanan çox mühüm vəzifə sayırdı.



İstər səfərbərlik işində, istərsə də bütövlükdə ordu quruculuğunda nöqsanların aradan qaldırılmasında kadrların tərbiyələndirilməsi, seçilməsi, yerləşdirilməsi Heydər Əliyevə görə böyük əhəmiyyət kəsb edən məsələlərdən biri idi. O dəfələrlə hərbi hissələrə səfər etdi, xidmət ilə yaxından tanış oldu, əsgər və zabitlərin qayğıları ilə maraqlandı. Heydər Əliyev peşəkarlıqla bərabər, mənəviyyat saflığını, əqidə bütövlüyünü, vəzifə borcuna sadiqliyi zabit kadrlarının başlıca keyfiyyətlərindən sayırdı və buna nail olunmasını da ordu quruculuğunun ümdə vəzifələrindən biri hesab edirdi.

Atəşkəsin əldə edilməsindən sonra ordu quruculuğu yeni yüksək mərhələyə daxil oldu. Heydər Əliyev dinc fürsətin əldə edilməsini ordu quruculuğunun sürətləndirilməsi üçün münasib imkan kimi qiymətləndirdi. Böyük öndər birmənalı şəkildə bildirdi ki, Azərbaycanda ordu quruculuğu kampaniya xarakteri daşımamalıdır. Ordu Azərbaycanın müstəqilliyinin atributudur və ona görə bu proses davamlı bir prosesdir.

Atəşkəs dövründə ordu quruculuğunun uğurla aparılması üçün Heydər Əliyev dövlətin strateji siyasətini müəyyənləşdirdi, milli zabit kadrlarının hazırlanması üçün mükəmməl bir hərbi təhsil sistemi formalaşdırdı, ordunun maddi-texniki bazasının təkmilləşdirilməsi daimi diqqət altına alındı.

Azərbaycan dövlətinin rəhbəri kimi Heydər Əliyevin müstəsna fəaliyyətinin təhlili göstərir ki, respublikanın hərbi təhlükəsizliyinin təmin edilməsində ölkənin xarici siyasətinin məzmunu böyük əhəmiyyət kəsb edirdi. Ona görə ki, xalqın haqq səsinin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycan ətrafında yaranmış informasiya blokadasının aradan qaldırılması, ölkəmizə qarşı hərbi təcavüzün cilovlanması və haqlı mövqeyimizin dünya miqyasında dəstəklənməsi üçün Heydər Əliyev yeni xarici siyasət formalaşdırdı.

Əvvəlki dövrlərdən fərqli olaraq izlənilən yeni xarici siyasət xalqın və dövlətin mənafeyinə tabe etdirildi. Əsassız birtərəfliliyə son qoyuldu, bölgədə böyük dövlətlərin maraqlarının yaxınlaşdırılmasına cəhd göstərildi. Ermənistanın təcavüzkarlığı barədə müfəssəl məlumatlar ən yüksək kürsülərdən dünya ictimaiyyətinə çatdırıldı. Bunun nəticəsi idi ki, dünyanın böyük dövlətlərində, nüfuzlu beynəlxalq təşkilatlarda Azərbaycanın haqlı mövqeyinə dəstək əməli xarakter aldı.

Azərbaycan Ordusunun hazırkı səviyyəsi ordu quruculuğu sahəsində Azərbaycan xalqının ümummilli lideri cənab Heydər Əliyev tərəfindən müəyyənləşdirilən ordu quruculuğu siyasətinin tamamilə doğru olduğunu bir daha sübut edir. Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilən həmin siyasət indi Azərbaycan Ordusunun yalnız bölgədə deyil, bütünlükdə dünyanın ən müasir orduları arasında yer tutmasına imkan vermişdir.

Təsadüfi deyil ki, Heydər Əliyev tərəfindən əsası qoyulmuş Azərbaycan Ordusu indi dünyanın 52-ci güclü ordusudur. Xalqımız şübhə etmir ki, məqamı yetişən anda Silahlı Qüvvələrimiz 2016-cı ilin aprelində, 2018-ci ilin mayında əldə etdiyi uğurları daha geniş miqyasda təkrarlayacaq və Azərbaycanın ərazi bütövlüyünü təmin edəcəkdir.

**Mehman SÜLEYMANOV,**
**Silahlı Qüvvələrin Hərbi Akademiyasının professoru, tarix üzrə elmlər doktoru, ehtiyatda olan polkovnik**